Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**KİVDF**

**Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"**

# Ziyarət dağının ətəklərindəki maddi-tarixi abidələrimiz

## Belə abidələrə zəngin Qarabağın dağlıq hissəsində, Cəbrayıl nahiyəsinin bir sıra yaşayış məntəqələrində də rast gəlinir

**Qarabağın yüksək Ziyarət dağları (2803 m) silsiləsinə və ona bitişik Tey dağları ətəklərində yerləşən həm Şuşa, həm də Cəbrayıl qəzaları daxilindəki türk-müsəlman mənşəli kəndlərimizin maddi-tarixi irsi nə qədər zəngin olsa da, tədqiqi-nəzəri öyrənilməsi baxımından yurdumuzun və tariximizin "ağ səhifələri" sırasında da xüsusi payı vardır. Şuşa qəzasının Kərkicahan, Qaybalı, Quşçu, Malıbəyli kəndlərində, Xocalı və Əsgəran şəhərlərində, Cəbrayıl qəzasının Məzrə, İsaqlı, Sirik, Dağ Tumas, Şıxlar, Şahvəlli, Süleymanlı... kəndlərində maddi-mədəni tarixi yerlərin, yerüstü və yeraltı arxeoloji tədqiqat ocaqlarının öyrənilməsi və təbliği sahəsində görülmüş işlər kifayət qədər (lazımı səviyyədə) deyildir.**

Bölgənin, dövlətçilik tariximizin gücləndirilməsi baxımından elə zəngin yerləri vardır ki, onlar barədə hələ də yazılmayıb və ya tədqiq edilməyib. Bundan istifadə edən məkrli düşmən indi həmin abidələri öz adlarına saxtalaşdıraraq, tikililərin ünvanını və soyadını dəyişdirərək, görkəminə və "üslubuna" hay donu biçərək dünyaya qədim yüzilliklər dövrünə aid "hay tarixinin maddi-tarixi nümunəsi" kimi təqdim edirlər.

Bu cür tarixi-maddi abidələrlə zəngin Qarabağın dağlıq hissəsi ərazilərində Cəbrayıl nahiyəsinin bir sıra yaşayış məntəqələri hüdudlarında da rast gəlinir, o cümlədən Tey dağlıq silsiləsində və ondan 4-5 km cənubda, həm də Çaxmaq çayı hövzəsində yerləşən Şıxlar kəndində. Bu çayın dərəsi üstündə "Şəhərgah" deyilən yer XI-XIII əsrlərin yadigarı olan Xudafərin körpüləri istiqamətində (50 km-dək məsafədə) Cənubi Azərbaycanla Qarabağın dağlıq hissəsini (Şuşa və Xankəndi şəhərlərini) birləşdirən yolun üstündə salınmış qədim Şəhərgah yaşayış məskənindən (yaşı yüzilliklərlə hesablanan) bir nişanədir. Burada qala divarlarının qalıqları, mağaralar ("Böyük kaha", "Kiçik kaha", "Pişik yuvası"...), yurd yerləri olub, iki qala tikilisi vardı. Onlardan birində kərpic hörükləri qalsa da, digərinin daş təndir yeri bilinirdi (Şıxlar kəndinə tərəf hissəsində). Keçən əsrin 70-ci illərində kənd camaatı həmin yerlərdən saxsı küplər, xüsusi naxışlı qranit parçaları tapmışdılar. 1971-ci ildə Şıxlar kənd sakini İlyas Təhməz oğlu (1925-1988) həyətyanı sahəsində təsərrüfat işləri görəndə üstü yazılı qəbir daşı tapmışdır ki, onun yazısını heç kim oxuya bilməmişdi, hətta Xocavənd rayonunun haylar yaşayan Dolanlar kəndindən (aralarında 15 km məsafə vardı) də gəlib maraqlananlar belə.





"Şəhərgah dərəsi"ndən yuxarıya qalxdıqda "Qala yeri" adlanan ərazi sıldırımlı qayalıqlarla əhatələnmişdi, amma səthi hamar idi, sahəsi 4-5 hektar olardı. "Qala yeri" bəlkə də Azərbaycan ərazisində ən qədim yaşayış məskənlərindən biri olub, "Böyük kaha", "Pişik yuvası" onun şərqində, qərbində isə küyüllər, zağalar yerləşirdi. "Şəhərgah" və "Qala yeri"nin də ətrafındada kurqanlar vardı. 1970-1975-ci və 1985-ci illərdə tarixçi alim M.S.Nemətova (1924-2016) bu ərazilərdə olmuşdur. Kurqanlarda tut, ardıc ağacları bitmişdi və 1970-ci illərdə qazıntı zamanı 3 adama məxsus sümüklər tapılmışdı. "Qala yeri"nin girişindən 30-50 m cənuba yanyana 2x2 m ölçüsündə 3 ədəd sal daş parçaları (onlara "Dirək daşı" deyilirdi) yerləşirdi, ikisi dairəvi idi, biri hamar, yonulmuş və bitişik halda. Kəndin yaşlı sakinlərinin (Sadatqulu Rüstəm oğlu (1848-1918), Təhməz Rüstəm oğlu (1852-1937), Ağa Səfiqulu oğlu (1885-1920), Xankişi Səfiqulu oğlu (1871-1946) Züleyxa Əliosman qızı (1880-1982), Balaxanım Məcnun qızı (1899-1994)...) bildirdiklərinə görə, bu sal daşlar hərbi-strateji məqsədlər üçün XVIII-XIX əsrlərdə qurulmuş səngər yerlərinin nişanəsi olub. Hələ 1978-ci ildə yerli əhali tərəfindən orada içinə adam yerləşən saxsı küp də tapılmışdı.

Şıxlar kəndinin cənubunda (10 km aralı) yerləşən Hovuslu kəndinin gündoğanının 500 metrliyində də "Qala dağı" ucalırdı və qədim qala tikililərinin izi qalmışdı, iri daşlar halında, hər iki kənddə eyni idi. Ümumiyyətlə, Gəyən düzündən (Hovusludan 500 m cənuba, Araz çayına tərəf) Ziyarət dağınadək 40-50 km-lik sırada (Hovuslu-Qalacıq-Çıxlar kəndləri boyunca) "Qala dağlar" yerləşirdi...

Qədim ticarət və karvan yolu üstündə olan bu Şəhərgah iqtisadi-ticari və hərbi-strateji əhəmiyyəti ilə də fərqlənib. Belə ki, kəndin cənub-qərb yönündə, 700-800 m aralıda tökmə torpaqlardan ibarət yaradılmış kurqanlardan (süni təpələr, 30-50 m hündürlüyündə) "Acölən təpə", "İmanqazan təpə", "Qoşa təpələr", şimal yöndə "Dulusxana", "Muxas ölən", şərq tərəfdə isə "Qardaşlıq yüksəkliyi", "Tək qoz"... nişangahları vardı. Şıxlar kəndindən İsaqlı kəndinə gedən yolun üstündə, 1 km aralıdakı ərazidə yağış sularının üzə çıxardığı küp, bardaq, muncuq hissələri... qalıqlarına rast gəlinib 1970-1980-ci illərdə.

1795-1797-ci illərdə Cənubi Azərbaycan xanədanının şahı Ağa Məhəmməd şah Qacar Qarabağa və Gürcüstana hərbi yürüşlər zamanı Şıxlar kəndindən keçmiş, 2-ci səfərində isə buranı yerlə-yeksan etmişdir.

Yerli toponimlər sırasında "Min evli Şıxlar" adlanan bu kənddən 2-3 km şimalda əski oba-məskən yerlərini bildirən "Məhəmməd Əmin yurdu", "Alı keyxalı yurdu", "Soltanlı yurdu", "Tomas qullar yeri", "Qumlaq yeri" vardı. 100-150 illik tarixə malik bu ocaqlarda 1993-cü ilədək adda-budda 3-5 yurd yerlərinin qalıqları bilinirdi, ətrafı kolkos bürümüşdü.

XII-XIII əsr tikilisi olan Şeyx Baba Qiyasəddin türbəsi kənddən 100 m aralı, qayanın üstündə şimal hissədədir. Dairəvi formada hündürlüyü 8-10 metrə çatan bu ziyarətgahı 1905 və 1918-ci illərdə hay-daşnak quldurları dağıtmışdılar, üstündəki sal daş layı (örtüyü) qarət edilib aparılmışdı. Nəticədə türbənin içərisində 5-6 m boy verən dağdağan ağacı, çölündə isə saqqız ağacı bitmişdi. Ətrafında hündür və böyük baş və sinə daşları ilə örtülü qədim qəbiristanlıq var idi. Qonşu Xələfli və Məlikli kənd sakinlərinin də ziyarət etdikləri bu türbənin oxşarına Füzuli nahiyəsinin Babı kəndində rast gəlinir. Kəndə bitişik hissədə isə yaşı 2 min ilə bərabər olan "Mehralılar qəbiristanlığı" salınmışdı. Deyilənə görə, Qarabağın məşhur din xadimi Hacı Qaraman və Hacı Qasım Çələbi bu kəndlərdə olmuş və dini-irfani təlimlərlə məşğul olmuşlar.

Qarabağın dağlıq hissəsində yerləşən və ermənilər yaşayan Dolanlar kəndində məskunlaşan silahlı quldur dəstələrinin 1905-ci və 1918-ci illərdə Şıxlar kəndinə davamlı hücumlarının qanlı savaş yerlərindən biri də bu iki kənd arasındakı "Qala dərəsi" olmuşdur. Osmanlı Türkiyəsinin IV Ordusunun (M.Qarabəkir paşanın başçılığı ilə) bir bölüyü tərəfindən yağı düşmənə burada layiqli cavab verilən sonra haylar "ora düşmən ayağı dəyib" deyərək bu dərədən bəri keçmirdilər.

Qəzanın Dolanlar kəndinin yaranma tarixi də maraqlıdır (faciəvidir): 1860-cı ildə Cənubi Azərbaycandan köçürülən ermənilər 8 qatır yükü ilə Keçəl Məhəmmədli kəndinin "Yazdağ yeri"nə düşüblər. Çar Rusiyasının hakim dairələrinin təşəbbüsü və Qarabağ xanlığı hüdudlarında general-mayor Cəfərqulu xan Məhəmmədhəsən oğlu Sarıcalı-Cavanşirin (1775-1867) köməkliyi ilə ermənilərə orada daimi məskən seçilmiş, onlar yerləşdirilmişdir. Beləcə, Dolanlar kəndinin əsası qoyulmuşdur.

*Qeyd: Yazının hazırlanmasında Cəbrayıl rayonu, Şıxlar kənd sakinləri Hüseyn Ağakişi oğlu Rüstəmovun (1958) və Xansuvar Məhəmməd oğlu Quliyevin (1964) məlumatlarından istifadə olunmuşdur.*

**Qismət Yunusoğlu,**
**Bakı Dövlət Universitetinin müəllimi**